# Ölkəmizin inkişaf və tərəqqi yolunun başlanğıcı



*Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına bir daha dərin minnətdarlığımı, hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm.*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin andiçmə mərasimindəki nitqindən**

***10 oktyabr 1993-cü il***

**1993- cü il oktyabrın 3-də xalqımız özünün gələcək taleyinə, müqəddəratına uyğun seçim etdi. Həmin gün ölkəmizdə keçirilmiş prezident seçkilərində ulu öndər Heydər Əliyev seçicilərin böyük əksəriyyətinin etimadını qazanaraq – 98,84 faiz səslə Azərbaycan Prezidenti seçildi. Bu, Azərbaycan tarixinin yeni mərhələsi – inkişaf və tərəqqi yolunun başlanğıcı kimi dəyərləndirilir. Heydər Əliyevin prezident seçkilərində böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın ulu öndərə, onun siyasi iradəsinə, dünyadakı nüfuzuna, dövlət idarəçiliyindəki zəngin təcrübəsinə və uzaqgörənliyinə olan dərin inamdan irəli gəlirdi.**

Ulu öndər Heydər Əliyev 1993 - cü il oktyabrın 10 -da keçirilən andiçmə mərasimindəki nitqində demişdir: "Azərbaycan Respublikası öz müstəqilliyini ağır və çətin bir şəraitdə əldə etmişdir. Respublika üçün ən ağır məsələ beş ildən artıq müddətdə Azərbaycanın müharibə şəraitində olması, erməni silahlı qüvvələri tərəfindən ərazimizə təcavüz edilməsi və bunun nəticəsində Azərbaycan xalqının böyük bəlalara düçar olmasıdır. Ona görə də Azərbaycan Respublikasının müharibə şəraitindən çıxması və vətəndaşlar üçün rahat, sakit, əmin-amanlıq şəraiti yaradılması qarşımızda duran əsas vəzifədir. Azərbaycanın ağır müharibə şəraitinə düşməsi, bu problem, yəni Qarabağ problemi başlanan dövrdən respublika rəhbərliyinin, keçmiş Sovetlər İttifaqı rəhbərliyinin buraxdığı səhvlərin nəticəsidir. Lakin, təəssüf ki, ötən dövrdə respublikanın bu vəziyyətdən çıxması üçün lazımi tədbirlər görülməmişdir. Respublikanın düşdüyü ağır iqtisadi, sosial, siyasi-ictimai və mənəvi böhran axır zamanlar daha da dərinləşmiş və 1993-cü ildə, demək olar, son həddə çatmışdır. Bu ilin iyun ayında Azərbaycanda daxili sabitlik tam pozulmuş, respublikada ayrı-ayrı qüvvələrin qarşıdurması, bəzi cinayətkar qrupların, separatçı qüvvələrin respublikanı parçalamaq meyillərini həyata keçirmək istəməsi və başqa səbəblər daxili böhranı daha da dərinləşdirmişdir".

Ölkədə anarxiya, xaos və özbaşınalığın yaranmasının, müstəqilliyin ilk addımlarını atan Azərbaycanın getdikcə beynəlxalq aləmdən təcrid olunmasının ölkəyə rəhbərlik edən diletantların dövlət rəhbərliyinin buraxdığı kobud səhvlər nəticəsində yarandığını bildirən ulu öndər 1993 – cü il iyun ayında respublikamızın vətəndaş müharibəsi həddinə çatdığını və bəzi bölgələrin parçalanmasının real bir hal kimi meydana çıxdığını bildirmişdi. Son dörd ay ərzində baş verənlərə münasibət bildirən ulu öndər bunların qarşısının alındığını diqqətə çatdırmış, bəzi cinayətkar qrupların aradan götürüldüyünü və respublikanın daxilində ictimai-siyasi sabitliyin təmin edilməsi üçün şərait yaradıldığını bildirmişdir.

Həmin vaxt respublikamız üçün çox ağır və çətin bir dövr oldu. Bu müddətdə xalqımız çətin sınaqlardan çıxdı və bir daha sübut etdi ki, milli birlik və həmrəylik bütün bu çətinliklərin qarşısını ala bilər. Respublikanı bu ağır vəziyyətdən çıxarmaq üçün vətəndaş birliyi əsas şərtlərdəndir.

Ulu öndər Azərbaycan Respublikasının müstəqilliyini tarixi hadisə hesab edirdi. Xalqımızın milli sərvəti, tarixi nailiyyəti olan müstəqilliyi möhkəmləndirmək, o cümlədən müstəqil dövlət quruculuğu yaratmaq, dövlət atributlarını inkişaf etdirmək, ərazi bütövlüyümüzü təmin etmək, ölkəni müharibə şəraitindən çıxarmaq böyük və mürəkkəb vəzifə kimi qarşıya qoyulmuşdu.

1993-2003- cü illər ölkəmiz üçün çox uğurlu olan dövrdür. Məhz həmin dövrdə ictimai-siyasi sabitliyə nail olundu. Demokratik prinsiplərin və təsisatların yaradılması və təkmilləşdirilməsi, dövlət aparatının möhkəmləndirilməsi və iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması, cəmiyyətdə yeni davranış norma və stereotiplərinin yaradılması, yeni -- açıq və demokratik vətəndaşlığın formalaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, həyat qabiliyyətli xarici siyasət modelinin yaradılması istiqamətində əməli işlərə başlanıldı. Ölkədə qeyri-qanuni silahlı birləşmələr ləğv edildi və vahid komandanlığa tabe olan Milli Ordu yaradıldı. Bununla da nizami ordu quruculuğunun əsası qoyuldu.

Azərbaycanın demokratik dəyərlər əsasında dayanıqlı inkişafını təmin etmək istiqamətində ulu öndər Heydər Əliyev tərəfindən atılan ən mühüm addımlardan biri müstəqil Azərbaycanın yeni Konstitusiyasının qəbul olunması idi. Həmin dövrdə Azərbaycanın müstəqilliyinin təminatı üçün müasir ruhda yazılan və xalq tərəfindən qəbul edilən yeni Konstitusiyaya zəruri ehtiyac var idi.1995-ci il mayın 2-də Prezident Heydər Əliyevin sədrliyi ilə 37 nəfərdən ibarət Konstitusiya Komissiyası yaradıldı. Komissiyanın qarşısına qoyulan əsas vəzifə bütün sahələri əhatə edən, respublikamızın demokratik prinsiplər əsasında uzun müddət yaşamasını təmin edən, müstəqil hüquqi, dünyəvi, sivilizasiyalı bir dövlət qurmaq üçün Əsas Qanun hazırlamaq idi.

Belə də oldu.1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının ilk Konstitusiyası ümumxalq səsverməsi əsasında qəbul edildi. Bu Konstitusiyanın qəbulunu həm də siyasi, iqtisadi, sosial və mədəni sahələrdə baş verən fundamental dəyişikliklər, yeniliklər şərtləndirirdi. Konstitusiya müstəqil dövlət quruculuğu prosesi fonunda mövcud şəraiti tənzimləyəcək, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında baş verən köklü dəyişiklikləri özündə ehtiva edəcək, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində hüquqi baza rolunu oynayacaq mütərəqqi bir Əsas Qanun idi.

Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycanın Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etdi, hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoydu. Təsadüfi deyil ki, şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir. Konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer ayrılması ölkəmizin demokratik prinsiplərə böyük önəm verməsinin nəticəsidir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi. Konstitusiya qəbul edilən gün -- noyabrın 12-də respublika parlamentinə ilk dəfə çoxpartiyalı sistem əsasında demokratik seçkilər də keçirildi. İlk Konstitusiyanın milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Prezidentin 1996-cı il 1 noyabr tarixli fərmanına əsasən hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başlandı.

Ulu öndərin memarı olduğu Konstitusiyada, həmçinin dövlətin əsasları təsbit olunub. Həmin Konstitusiyada insan hüquq və azadlıqlarının təminatı, müdafiə mexanizmi ilə bağlı dünyanın demokratik dövlətlərinin təcrübəsində olan bütün müddəalar öz əksini tapıb.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə insan hüquq və azadlıqlarının müdafiəsi xüsusi önəm kəsb edib. Heydər Əliyev insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində nəinki Azərbaycan , hətta bütün Şərq ölkələri, ümumilikdə dünya təcrübəsi üçün nümunə olan uzaqgörən addımlar atmış, insan və vətəndaş hüquqlarının təmin edilməsini dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyən etmişdir.

1993-cü ildə dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyulmuş, 1998-ci il fevralın 10-da isə Azərbaycanda ölüm cəzası ləğv edilmişdi. Bu tarixi addım humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ümummilli liderin gələcək nəsillərə misilsiz töhfəsidir.

Təbii ki, cinayət cəzasız qalmamalıdır. Hər bir cinayətin layiqli cəzası olmalıdır və var. Cəza hüququnun reallaşdırılmasında belə ədalətə söykənmək isə Azərbaycanda ulu öndər Heydər Əliyevin əsasını qoyduğu humanizm siyasətinin əsas qayələrindən biridir. Məhz ulu öndərin hakimiyyətə qayıdışından sonra ölkəmizdə demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarının təsbit olunmasına, cəmiyyətdə humanizm prinsiplərinin bərqərar edilməsinə xüsusi önəm verildi. Müdrik şəxsiyyət daim humanizm məfkurəsindən çıxış edərək mərhəmət və insanpərvərlik kimi ən ali keyfiyyətləri rəhbər tuturdu. Ulu öndərin humanizm ideyalarına böyük önəm verməsi və bu sahədə qətiyyətli addımlar atması vətəndaş həmrəyliyinə, insanların hakimiyyətə olan inam və etimadının yüksəlməsinə, ulu öndərin ətrafında sıx birləşməyə xidmət etdi.

Heydər Əliyevin həyata keçirdiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanizm prinsipləri nəticəsində əfv və amnistiya institutlarının əsası qoyuldu. 1995-2003-cü illərdə 7 amnistiya aktının və 32 əfv fərmanının qəbul edilməsi beynəlxalq aləmdə də yüksək dəyərləndirildi. Bu amnistiya aktları 77 mindən çox insana şamil edildi. Onlardan 21 min 325 nəfəri cəzasının çəkilməmiş hissəsindən azad olundu. Ulu öndər, həmçinin törətdiyi cinayət əməlindən peşmançılıq keçirən, cəzasının bir hissəsini çəkən 3 mindən artıq şəxsi də əfv etdi. Ulu öndər böyük humanistlik nümayiş etdirərək imzaladığı əfv fərmanları ilə hətta, 1994-1995-ci illərdə dövlət çevrilişi cəhdlərində iştirak edən insanların da bir qismini bağışladı.

Azərbaycanın inkişafının sonrakı mərhələləri-- beynəlxalq aləmə inteqrasiyası, nüfuzlu qurumların fəal üzvünə çevrilməsi, demokratik təsisatlara böyük önəm verilməsi, idarəçilikdə və iqtisadi sahədə zəruri islahatların aparılması və ölkəmizin dünyanın vacib aktorları sırasına qoşulması ulu öndər Heydər Əliyevin şəxsi nüfuzu, dövlət idarəçiliyindəki zəngin təcrübəsi və düşünülmüş strategiyası sayəsində əldə olundu.

Ümummilli lider təkcə Azərbaycanın deyil, həm də dünyanın nadir və bənzərsiz şəxsiyyətlərdən biridir. Onun andiçmə mərasimində "And içirəm ki, Azərbaycan Respublikasına, Azərbaycan xalqına ləyaqətlə xidmət edəcəyəm, müstəqil dövlətimizin sivilizasiyalı dünya dövlətləri arasında, dünya birliyində ləyaqətli yer tutmasına çalışacağam" -- deməsi, özünü bütün sahələrdə doğruldub. Hazırda Azərbaycan dünyada söz sahibinə çevrilmiş müstəqil dövlətdir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kursu möhtərəm Prezidentimiz İlham Əliyev layiqincə davam etdirməklə Azərbaycanı dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşub.

"Mən ona özüm qədər inanıram. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək". Ulu öndər Heydər Əliyevin 16 il bundan əvvəl dediyi bu sözlər bu gün Azərbaycanın dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşulması ilə reallığa çevrildiyini təsdiqləyir.

***Səhər İSMAYILOVA,***
***Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının sektor müdiri***